Mahmudova, R. (2025). Ali məktəbdə tələbə müstəqil işinin mahiyyəti. *J-EDUCAT: Journal of Educational Studies,* 3 (2), 526-536.

**J-EDUCAT: Eğitim Araştırmaları Dergisi**
**Journal of Educational Studies**
(ISSN: 3023-8145)
http://www.jeducat,com
*Received: 22.09.2025, Accepted: 18.11.2025/ Published: 30.11.2025, Article Type: Review*
*DOI: 10.5281/zenodo.17780748*

# Ali Məktəbdə Tələbə Müstəqil İşinin Mahiyyəti

*Rahima MAHMUDOVA* *

**Xülasə**

Müəyyən prinsip və şərtlər əsasında təşkil olunan tələbələrin müstəqil işi sistemində idrak maraqlarının təmin olunması onların intellektual fəallıqlarını artırır, idrak və müstəqil iş tələbatını formalaşdırır. Daxili tələbat tələbəni müstəqil işə yönəldir və bununla da müstəqil iş fəaliyyəti yaranır. Tələbələrin müstəqil işi sistemi imkan və yollarından ali məktəbdə düzgün və səmərəlilik mövqeyindən istifadə tələbələrdə biliyi dərinləşdirmək, möhkəmləndirmək, bacarıq və vərdişləri formalaşdırmaqdan əlavə, stimullaşdırıcı əhəmiyyət daşıyır, nəticədə tələbə məzun olaraq pedaqoji fəaliyyətə başlarkən intellektual və peşə fəallığı göstərir. Tələbələrin müstəqil iş bacarıqlarının əsası hələ ümumtəhsil məktəbində ikən qoyulur. Ali məktəbdə müstəqil işin məzmunu, imkanları, yolları, formaları əvvəlki bacarıqlar üzərində qurulur, müstəqil işin, fəaliyyətin xarakterdə formalaşmasına təkan verir, iradəni daha da möhkəmləndirir, insanı özünə inamlı, cəsarətli edir. Ali məktəbdə TMİ-nin imkanları genişdir. Bu tədris planı üzrə ayrılmış məşğələlərdə və auditoriyadankənar çalışmalarda, tədris planından kənar sərbəst müstəqil işlərdə ehtiva olunur, müəyyən vaxt büdcəsi və əmək sərf edilməklə ondan istifadənin nəticələri meydana çıxır. Ali məktəbdə TMİ-nin təşkili və tətbiqi yolları müxtəlifdir, lakin bunların hamısı biri-birilə əlaqəlidir, vahid məqsədə xidmət edərək, təhsil alanın müstəqillik hazırlığının formalaşdırılması vəzifəsini yerinə yetirir.
**Keywords:** Ali məktəb, müstəqil iş, tələbə.

## The Essence of Independent Work of Students at High School

**Abstract**

In the system of independent work of students, organized on the basis of certain principles and conditions, ensuring cognitive interests increases their intellectual activity, forms the need for cognitive and independent work. The internal need directs the student to independent work, and thus independent labor activity arises. The correct and effective use of the possibilities and methods of the system of independent work of students in higher education, in addition to deepening and consolidating students' knowledge, forming skills and abilities, also has a stimulating value, as a result of which, starting pedagogical activity as a graduate, the student shows intellectual and professional activity. The basis of the skills of independent work of students is laid in high school. The content, possibilities, methods and forms of independent work in higher education are based on previously acquired skills, give impetus to the formation of an independent and active character, additionally strengthen the will, make a person self-confident and courageous. The possibilities of TMI in higher education are wide. It is included in lessons and extracurricular activities provided for by this curriculum, in free independent work outside the curriculum, and the results of its use arise with a certain budget of time and effort. The methods of organizing and implementing TMI in higher education are varied, but they are all interconnected, serve a single purpose and perform the task of forming the student's readiness for independence.
**Keywords:** University, independent work, student.

* Dr., Bakü Devlet Üniversitesi, Sosyal Bilimler ve Psikoloji Fakültesi, Pedaqoji Bölümü, Bakü, nara_m@mail.ru

## Giriş

Bu gün təhsil sistemində çox aktual sayılan pedaqoji problemlərdən biri öyrənənlərin müstəqil işinin səmərəli təşkili və həyata keçirilməsidir. Pedaqoq alim Y.Talıbovun təbirincə desək, aşkarlıq, demokratiya, insan amili rolunun yüksəldilməsi tələbə gəncləri müstəqil mühakimə yürütməyə, dialoq keçirməyə təhrik edir. Bu məsələnin ümumi tərəfində təhsillə bağlı xüsusi bir cəhət də vardır ki, bu, elmi biliklərə yiyələnmə və ondan istifadə bacarığı ilə əlaqədardır. Məlumdur ki, təlim təkcə hazır biliklər verməklə kifayətlənməməli, həm də öyrənənlərin biliyi müstəqil yolla əldə etməsi qayğısına qalmalıdır. Polşalı alim V.Okonun fikrincə, elmin inkişafı ilə təlim arasında həmişə mühüm əlaqə olmuş və indi də vardır. Ona görə də «elm» anlayışının müasir şərhinə uyğun olaraq, biz təlimdə şagirdlərə və tələbələrə həm bilik verməli, həm də onları müstəqil bilik əldə etmək üçün müvafiq fəaliyyət növlərinə alışdırmalıyıq. Bu baxış özünü müşahidələrimizlə təsdiqləyir. Həqiqətən nəzəri və praktik elm çox sürətlə inkişaf edir, hətta vaxtilə dərslikdən istifadəyə verilən sabitlik prinsipi özünü daha doğrultmur. Çünki dərsliyə düşmüş bəzi elmi nəticələr sürətlə yeniləri ilə əvəz olunur, dərslikdə dəyişiklik zərurəti yaranır və ya yenicə kəşf edilmiş şeylərin bir çoxu dərsliklərə, mühazirə kurslarına düşməmiş köhnəlir. Tədqiqatçı alim B.Əhmədov haqlı olaraq qeyd edir ki, istər ümumtəhsil məktəblərində, istərsə də ali təhsil müəssisələrində öyrədənlərin, tərbiyə edənlərin vəzifəsi təkcə hazır bilikləri verməkdən ibarət olmayıb, həm də biliyi müstəqil qazanmağın yollarını öyrətməkdən ibarətdir. Alim təəssüflə bildirir ki, biliyin müstəqil yolla əldə edilməsi üçün şagirdlərin və tələbələrin fəaliyyətinin təşkili məsələsi hələ də nizama salınmamış problemlərdən biri olaraq qalmaqdadır. «Deməli, pedaqogika sahəsində tədqiqat aparan alimlərin qarşısında duran mühüm məsələlərdən biri məhz şagirdlərin və tələbələrin müstəqil işlərinin düzgün təşkili, onların təfəkkürünün inkişaf etdirilməsi problemi ilə bağlı olmalıdır.» (Əhmədov H.M.,2000). İyirmi beş ildən artıq keçməsinə baxmayaraq alimin fikri hələ də öz aktuallığını saxlamaqdadır. Hələ də tələbələrin müstəqil işi ilə əlaqədar praktik əhəmiyyətli, əməli işə təkan verən tədqiqatlar aparılmamışdır.

### Tələbələrin Müstəqil İşinin Tarixi

Təhsil alanların yaradıcı fəallığı, müstəqilliyi, sərbəst olaraq öyrənmə ilə məşğul olması məsələsi XII-XIII əsrlərdə təlimin və təhsilin tərkib hissəsi olaraq fərdin təlim, bilik və bacarığını müstəqil işlərlə inkişaf etdirməsi aktual pedaqoji-metodik problem olmuşdur. O zamanlar və daha sonralar buna didaktik tələb kimi baxılmışdır. Lakin bu mühüm pedaqoji mahiyyətli iş hazırda sosial-iqtisadi tələb səviyyəsinə qalxmış, şəxsiyyətin fəaliyyət və ünsiyyət hazırlığının əsas komponentinə çevrilmişdir. Bizim məqsədimiz mühüm əhəmiyyətə malik müstəqil iş problemini peşə hazırlığı prosesində təhsil vasitəsilə meydana qoymaqla ilkin olaraq onun pedaqoji problem kimi həllini vermək, ikincisi, təbii olaraq şəxsiyyətin həyat hazırlığında mühüm rol oynayan bu pedaqogi prosesin həm də

sosial mahiyyətli mövqeyini aşkarlamaqdır. Tələbələrin müstəqil iş bacarıqlarının əsası hələ ümumtəhsil məktəbində ikən qoyulur. Ali məktəbdə müstəqil işin məzmunu, imkanları, yolları, formaları əvvəlki bacarıqlar üzərində qurulur, müstəqil işin, fəaliyyətin xarakterdə formalaşmasına təkan verir, iradəni daha da möhkəmləndirir, insanı özünə inamlı, cəsarətli edir.

Müstəqil olaraq bir elmi fikrin, ideyanın izinə düşüb, onu arayıb tapmaq, mahiyyətini öyrənmək, yaxud müstəqil fikir söyləmək, özünəməxsus ideya və baxışlara malik olmaq, digər təsirlərə kor-koranə qapılmamaq meyli tələbəlik illərində müstəqil işləməyə alışaraq yaranır. Ona görə də tələbələrlə müstəqil işin yüksək pedaqoji-metodik tələblərlə və psixoloji şərtlər nəzərə alınaraq təşkili mühüm əhəmiyyət daşıyır. Bunun üçün isə müstəqil işin mahiyyəti, ilk növbədə imkanları və yolları müəyyənləşdirilməlidir. Çünki imkanlar müəyyənləşdirilmədən işin yeri görünmür, imkanlar göründükdə isə mütləq həyata keçirmə yolları, formaları tapılmalıdır. Pedaqoji prosesdə müstəqil iş mahiyyətcə ümumi şəkildə hamı tərəfindən qavranılır, sərbəst müstəqil fəaliyyətə (istər idrak, istərsə də əmək fəaliyyətinə) hazırlaşmaq, yaxud müstəqil icraçılıq bacarıqları nümayiş etdirmək kimi başa düşülür. Lakin buna çatmaq üçün müxtəlif məzmunlu, formalı pedaqoji-didaktik, sərbəst yaradıcı işlərdən istifadə olunur. Məhz bu cəhətləri nəzərə alaraq professor Y.Talıbov (Talıbov Y.R,1990) müstəqil işə belə bir tərif verir: «Müəllimlərin tapşırığı ilə (belə bir tapşırıq verilməyə də bilər), lakin onların bilavasitə rəhbərliyi olmadan müəyyən zaman fasiləsində tələbələrin mənimsədikləri elmi, siyasi, əxlaqi-etik bilik, bacarıq və vərdişləri möhkəmləndirən, təkmilləşdirən, onları fikri fəallığa, tədqiqatçılığa təhrik edən, axtarıcılığa yönəldən işlərin optimal sistemi müstəqil iş adlanır.» (Talıbov Y.R,1990). Fikrimizcə, səlis, dəqiq ifadə edilməyən bu tərifi daha sadə formada təqdim etmək olar. Burada «elmi, siyasi, əxlaqi-etik» ifadələrinə ehtiyac yoxdur.

Tədqiqatçı M.İsmixanov şagirdlərin təlimdə müstəqil iş məsələsini araşdıraraq belə bir qənaətə gəlir ki, təlimdə, müstəqil iş qarşıya qoyulmuş təlim vəzifəsini şagirdin müəyyən səy və müstəqillik göstərərək öz qüvvəsi ilə həll etməsi bacarığında təzahür edən təlim fəaliyyətinin bir növüdür (İsmixanov M.,1978). Tədrisdə müstəqil iş Təlim prosesində tərifdə qeyd edilən vəzifənin yerinə yetirilməsindən əlavə, bilavasitə təlim prosesində müəllimin şərhi zamanı idrak müstəqilliyi fəaliyyətini, təhlil-tərkib aparmasını, qavrama və anlamada şəxsi psixi meyl və motivləri nəzərə almır. Ona görə də bu tərifdə «müəllimin şərhi zamanı öyrənənlərin müstəqil idrak fəallığı göstərərək bilikləri qavraması» ... tərəfinin əks olunması prosesə sistemli yanaşmanı təmin edərdi. Professor B.Bəşirova (Əliyev,2001) görə, müstəqil iş tələbənin bilikləri fəal qavramaq, anlamaq, bir sıra hallarda yenidən işləmək, dərinləşdirmək, əldə edilənləri genişləndirmək və yeni informasiya yaratmaq üçün fəaliyyət prosesidir.» Bu tərifdə daha çox müstəqil işin yolu və formaları ehtiva olunur. Ona görə də, fikrimizcə, bu tərifdə də tamlıq, əhatəlilik yoxdur.

Ali məktəb üçün yazılmış dərsliklərin də əksəriyyətində tələbələrin müstəqil işi ya ötəri əks olunmuş, ya da heç təqdim olunmamışdır. Bu məsələyə toxunulmuş dərslik və dərs vəsaitlərində

müstəqil işin əhəmiyyəti haqqında söhbət açılmış, məzmununa daxil olan işlər ümumi şəkildə şərh olunmuşdur. Ona görə də biz ayrı-ayrı dərslikləri deyil, daha səciyyəvi olanlara münasibət bildirmək istərdik. İ.İ.Kobılyatskiy müstəqil işi ev tapşırıqlarını yerinə yetirən zaman göstərilən fəaliyyət kimi qəbul edənlərin əksinə olaraq dar əhatədə deyil, geniş əhatədə qəbul edir. O yazır ki, müstəqillik və yaradıcı fəallıq auditoriyada mühazirəni dinləyərkən, onu qavrayarkən, eləcə də laboratoriyada, kitabxanada, məktəbdə, istehsalda ona hazırlaşarkən başlanır. Bu fəaliyyət tələbələr yuxarı kursa keçdikcə tədqiqi axtarışlar səciyyəsi alır.

O müstəqil işə sistemli və daimi(ardıcıl) iş kimi baxır, tələb edir ki, hər bir kafedra tələbələrin müstəqil iş metodikasına yiyələnmələrinə qayğı göstərsin. Professor N.Kazımov (Kazımov N.M,1999) magistratura pilləsi üçün 1999-cu ildə nəşr etdirdiyi «Ali məktəb pedaqogikası» dərsliyində müstəqil iş məsələsinə geniş toxunmur. Tələbələrin müstəqil işi tədris planı üzrə auditoriyadan xaric məşğələ forması kimi təqdim edir. Yazır ki, müstəqil iş bilik, bacarıq və vərdişlər qazanmaqda tələbələrin müstəqilliyini formalaşdırmaq məqsədi güdür. Müstəqil işin növləri çoxdur: kitab üzərində, o cümlədən dərslik və dərs vəsaitləri üzərində iş, məşğələdə və məşğələdən kənarda jurnal və qəzet məqalələri və tarixi sənədlər üzərində iş, konspekt tutmaq, referat yazmaq, tezis yazmaq, mühazirə mətni üzərində işləmək, laboratoriya və emalatxana şəraitində müstəqil işləmək, məsələ və misal həll etmək, idman növləri üzrə və çalğı alətlərində məşq etmək, imla və inşa yazmaq, məruzə mətni hazırlamaq, tərcümə fəaliyyəti ilə məşğul olmaq və s. (Kazımov N.M,1999).

Ali məktəbdəki çoxillik müşahidələrə əsaslanaraq belə hesab edirik ki, TMİ təşkilində didaktikanın prinsipləri xüsusi metodikanın spesifikası ilə uyğun gəlir. Ona görə də hər bir fənn müəllimi tələbə əməyinin elmi təşkili məsələlərini öyrənməlidir, onu yalnız pedaqogika üzrə mütəxəssisə tapşırmaq olmaz (Иоганзен Б.Г.,1970). Ali məktəb didaktikasında hələ də tələbələrin müstəqil işi məsələsi tam həllini tapmamışdır. Lakin mövcud nöqteyi-nəzərlər, irəlidə qeyd etdiyimiz kimi, ayrı-ayrı istiqamət və formaları əhatə edərək bu barədə müəyyən təsəvvür verir.

Bəzi tədqiqatçılar müstəqil işi tələbələrin özlərinə məxsus fəaliyyəti kimi, bəziləri isə onların idarə edilən fəaliyyəti kimi başa düşürlər ikinci tərəfin tərəfdarları mühazirə, seminar, praktik məşğələləri, laborator işlərini müstəqil işə daxil edir, bunların köməyi ilə tələbələrin müəllimlərin verdikləri məlumatları müstəqil düşüncədən keçirə bildiklərini və müəllimin köməyi olmadan müəyyən tapşırıqları, işləri sərbəst yerinə yetirə bildiklərini qeyd edirlər.

Elmi-metodik işlərdə tələbələrin müstəqil işi məsələsinə çoxmənalılıq baxımından yanaşılır. Bununla əlaqədar «tələbələrin müstəqil işi» anlayışına dar və geniş mənada anlam izah verilir. Tələbənin müstəqil işi dar mənada mənbələrin, dərsliklərin, əlavə ədəbiyyatın, özünün mühazirə konspektlərinin, seminara, imtahana hazırlaşarkən istifadə edilən ədəbiyyatın oxunması və icmallaşdırılması, geniş mənada isə tədris proqramı üzrə keçilənlərin məşğələlərdə qavranılması,

inamın, əqidənin ictimai işlərdə formalaşması və möhkəmlənməsi, əhali arasında pedaqoji biliklərin təbliği və s. nəzərdə tutulur.

«Методы и формы организации самостоятельной работы студентов» ali məktəblərarası elmi-metodik topluda dərc edilmiş qırx müəllifin işində tələbələrin müstəqil işinin xarici dillərin, iqtisadiyyatın, tibbin, kimyanın, fizika və riyaziyyatın və digər bir çox fənnlərin (kursların) tədrisində auditoriyada və auditoriyadankənar təşkili və həyata keçirilməsinə aid çoxlu misallar çəkilir, təcrübələr nümayiş etdirilir. Lakin pedaqoji fənlərin tədrisində bu sırf pedaqoji-didaktik prosesin necə həyata keçirilməsindən bəhs edilmir. Lakin topludakı hər bir məqalədə diqqət çəkən əhəmiyyətli elmi-metodik şərhlər vardır. Bu cəhətdən N.L.Mışkovanm tələbələrin müstəqil işinin təşkilinə elmi-metodik yanaşması tamlığı və əhatəliliyi ilə maraq doğurur. O yazır: «Yaxşı təşkil olunmuş müstəqil iş müəyyən prinsipləri, qanunauyğunluqları, formaları, metodları, vasitələri olan tam sistemi əks etdirir; o, sözün həqiqi mənasında tədris və tərbiyə işlərini təcəssüm etdirir». Daha sonra Saratov Pedaqoji İnstitutunda ictimai elmlərin öyrədilməsi üzrə yaranmış tələbələrin müstəqil işinin sistemi maraq doğurur. Müəllif oraya aşağıdakı element tərkibini daxil edir: a) mühazirənin tapşırıqlarının yerinə yetirilməsi; b) seminar məşğələlərinə hazırlıq; c) konfranslara, müsabiqələrə, baxışlara və s. hazırlıq; d) imtahana hazırlıq . Fikrimizcə, təcrübədə verilən bu tərkib müəllifin «tam sistem» halında götürdüyü tələbə müstəqil işinin məzmununu tam əks etdirmir.

**TMİ Pedaqoji Fənnlərin Tədris Materialları**

Azərbaycanda TMİ ilə əlaqədar aparılan tədqiqatlarda pedaqoji fənnlərin tədris materiallarına daha geniş yer verilmişdir. Professor S.Şəfiyevdə tələbələrin müstəqil işlərini auditoriyada və auditoriyadankənar fəaliyyətlə bağlayır. Qeyd edir ki, bu problem o vaxt müsbət həll edilə bilər ki, kompleks şəkildə həyata keçirilsin.

Prof. S.Şəfiyev tələbələrin müstəqil işlərinin tam sistemində iki istiqaməti qeyd edir: 1. tərbiyəvi təsir istiqaməti; 2. biliklərə yiyələndirmə istiqaməti. Və bildirir ki, tərbiyəvi təsir istiqamətində aparılan işin əsas məqsədi tələbələrdə geniş dünyagörüşü formalaşdırmaq, mədəni vərdişlər yaratmaqla bağlı tədbirlər səviyyəsini gücləndirməkdən ibarətdir. Biliklərə yiyələndirmə istiqamətində aparılan işlərin məqsədi tələbələrdə biliklərə yiyələnmə bacarıq və vərdişləri yaratmaq, müstəqil işlərin texnikasını öyrənmək və həmin biliyi konkret şəkildə həyata keçirməyə sövq etməkdir. S.Şəfiyev eyni zamanda müstəqil işin təşkilində ardıcıllıq prinsipinə əməl edilməsini vacib sayır. Hər iki alimin qənaətləri praktikada özünü doğruldan ənənəvi qənaətlərdir. Tələbə müstəqil işinin təşkilinin aşağı mərhələsini əks etdirir. Fikrimizcə, tələbə müstəqil işinin şəxsi yaradıcılıq, təşəbbüskarlıq, axtarıcı fəallıq aspektinə də diqqət yetirmək lazımdır. Bu cəhətdən V.İ.Tolkunov və V.S.Polosinin fikirləri diqqəti çəkir. Onlara görə, tələbələrin müstəqil işi dedikdə biz onların qarşıya qoyulmuş məqsədə nail olmaq istiqamətində fəaliyyətini başa düşürük. Göründüyü kimi, mənbələrə müraciət etdikcə, tələbələrin müstəqil işi ilə əlaqədar fikirlər, xüsusilə onun mahiyyətinə aid baxışlar biri-birindən daha da fərqlənir. Müəlliflərdən

biri tələbələrin müstəqil işini ali məktəbdə təlim metodu və ya onun elementi kimi, digəri yalnız materialın müstəqil yolla öyrənilməsi kimi, başqa birisi tədris planına və təhsilin xüsusiyyətinə uyğun olaraq tələbənin vəzifəsi kimi və s. anlamda təqdim edir.

S.İ.Arxangelski tələbələrin müstəqil işinə iki istiqamətdə fəaliyyəti daxil edir: a) tədris məşğələləri prosesində məcburi yerinə yetirilən müstəqil işlər və ona hazırlıq; b)tələbələrin şəxsi maraq və meyllərindən irəli gəlib, xüsusi fərdi plan üzrə məcburi tədris- akademik işlərdən əlavə yerinə yetirilən müstəqil . O.Y. Boqdanova tələbə müstəqil işlərini ümumi şəkildə tədris, elmi və ictimai işlər üzrə təsnif edir. P.İ. Pidkasistı isə müstəqil işin mərhələlərini tədris məşğələsi formasından asılı olaraq səciyyələndirir. Məsələn, mühazirə, seminar, praktik məşğələdən və s. Beləliklə, ali məktəb tələbələri üçün yazılmış dərslik və dərs vəsaitlərində, metodik tövsiyələrdə son 50 ilə yaxın müddətdə müstəqil işdən bəhs edərkən müəlliflər müstəqil işi mənimsəmənin dərin olması, öyrənənlərdə müstəqil iş vərdişlərinin artırılması, müstəqil işdən təlim metodu kimi, təlimin təşkili forması kimi istifadə edilməsi, təlim fəaliyyətinin növü hesab edilməsi, müstəqilliyin təlimin prinsipi kimi sayılması, əldə edilənləri genişləndirmək və yeni informasiya yaratmaq üçün fəaliyyət prosesi, axtarıcılığa yönəldilən işlərin optimal pedaqoji sistemi və s. kimi dəyərləndirmişlər.

Elmin inkişafı, informasiyanın bolluğu, tədris vaxtının bütün bunları çatdıra bilməməsi müstəqil işdən istifadəni təlim fəaliyyətinin tərkib hissəsinə çevirmiş, lakin fəallıq, axtarıcılıq öyrənənin üzərinə düşmüşdür. Öyrənmə, informasiya alma imkanlarının artdığı indiki şəraitdə öyrənənin müstəqil iş fəaliyyəti daha da genişlənmiş, öyrədənin rəhbərlik funksiyası yalnız istiqamətverici məzmun almış, əksinə, öyrənənin funksiyası daha da artmışdır. Beləliklə, araşdırma və müşahidələrimizin əsasında deyə bilərik ki, tələbələrin müstəqil işi öyrədənlər tərəfindən təşkil edilərək tələbələri müstəqil öyrənməyə, işləməyə, fəaliyyət göstərməyə, müstəqil fikir və düşüncələr söyləməyə, yaradıcı işgüzarlığa və s. təhrik edən pedaqoji prosesdir.

Ali məktəbdə tələbələrin müstəqil işlərinin, sərbəst öyrənmə fəaliyyətinin səmərəli təşkili və hətta genişləndirilməsi çoxaldılmış nəzəri biliklərin həcminin azaldılması və tələbələrin auditoriya məşğələlərinin həddən artıq yüklənməsinin qarşısının alınmasına kömək edir.

Araşdırmalarda, əsasən, tələbə müstəqil işinin mahiyyəti və məzmunu baxımından daha çox tələbə fəaliyyətinə üstünlük verilir. Fikrimizcə, ikinci tərəfdən ona rəhbərlik edən və təşkilini istiqamətləndirən müəllimin təşkilatçılıq və informasiya ötürmək, müstəqil işi dəyərləndirə bilmək məharətindən də çox şey asılıdır. Ancaq burada müstəqil işin təşkili və yerinə yetirilməsi mərhələləri düzgün, dəqiq müəyyənləşdirilməlidir. Bizim gəldiyimiz nəticəyə görə, birinci mərhələ I-II kursları əhatə edir və bu mərhələdə müəllimin tədris planına uyğun olaraq rəhbərlik və təşkiledicilik rolu daha üstün olur. Bu mərhələdə tələbələr müstəqil işin məzmununa daxil olan dövlət standartı tələblərini yerinə yetirməyə alışdırılırlar. Onlar proqramda nəzərdə tutulmuş mühazirələri dinləyir, seminar

məşğələlərində iştirak edir, kurs işlərini yazır, məqbul və imtahanlara hazırlaşırlar. Nəticədə qiymətləndirilən proqram həcmli biliklərə yiyələnir, bacarıq və vərdişlər qazanırlar.

Eyni zamanda onlar tədricən biliklərini dərinləşdirməyi və möhkəmləndirməyi, bacarıq və vərdişlərini nümayiş etdirməyi həyata keçirirlər. Tədricən onlarda təlim əməyinə yaradıcı münasibət formalaşır; faktlara, hadisələrə sərbəst münasibət bildirməyə başlayır və aldıqları bilik və bacarıqları müstəqil yolla təkmilləşdirirlər, biliklərini tətbiq edərək sərbəst işlər görə bilirlər.

Tələbələrin müstəqil işi sisteminin ikinci mərhələsini yuxan kurslarda auditoriya məşğələlərində və auditoriyadankənar müstəqil işlər təşkil edir. Əlbəttə, bu mərhələdə də tədris planı, tədris proqramı, dövlət standartı tələbləri əsas götürülür. Lakin tələbələr bu mərhələdə daha yaradıcı, daha sərbəst, daha məqsədyönlü olurlar. Çünki onlar müəyyən bacarıq və vərdişlərə yiyələnərək, işin texniki təşkilinə də bələdləşmiş olurlar. Müstəqil mütaliə üçün ədəbiyyatı yalnız kitabxanalarda deyil, internet səhifələrində də planlı şəkildə axtarıb tapa və istifadə edə bilirlər. Sərbəst tələbə elmi işləri hazırlayır, diskussiya və müzakirələrdə, Tələbə Elmi Cəmiyyətinin konfranslarında məruzələrlə çıxış edirlər.

Məlum olduğu kimi, ölkəmizdə həyata keçirilən təhsil islahatı təhsilin strukturunda köklü dəyişikliklər yaratmışdır. Onlardan biri də ali təhsil mərhələsinin iki pilləli olmasıdır. Bizim irəlidə qeyd etdiyimiz təsnifat bakalavr pilləsinə aiddir. Xüsusi pillə təşkil edən magistratura təşkilində yalnız o tələbələr təhsil alırlar ki, onlar yüksək bilik və bacarıqlara və elmi-tədqiqi vərdişlərə yiyələnmiş olsunlar. Deməli, bu pillədə tələbə müstəqil işinin ən yüksək mərhələsi – sıraya qoşsaq, III mərhələsi meydana çıxır. Bu mərhələdə tələbələrin auditoriyadankənar işləri daha geniş yer tutur. Tələbələr elmi məruzələr hazırlayır, elmlərin metodologiyasına yiyələnir, mətbuatda elmi məqalələrlə çıxış edir, magistr dissertasiyası yazırlar. Göründüyü kimi, tələbələrin müstəqil işi pillə-pillə genişlənir, tələbələr bu prosesdə elmi-tədqiqi vərdişlər qazanır, müstəqil yaradıcılıq işi görməyə alışırlar. Son pillə onların müstəqilliyini kamilləşdirir, onları müstəqil, yaradıcı, təşkilati fəaliyyəti üçün yetişdirir.

Ali təhsilin magistratura pilləsi hələ təkmilləşməyə möhtacdır. Təcrübə və araşdırmalarımızdan belə nəticəyə gəlirik ki, elmi-metodoloji biliklər verən bir sıra fənlərin tədrisi hələ lazımi səviyyədə deyildir. Xüsusilə, təhsilin metodoloji əsaslan, maarifin müasir problemləri, tədqiqat metodları ilə əlaqədar məzmunu əhatə edən və tədris planında yer tutan fənlərin nə təsdiq olunmuş proqramı, nə də tədris vəsaiti vardır. Buna görə də hər bir mühazirəçi bu fənlər üzrə mühazirələrini özlərinin topladıqları materiallar üzrə qururlar. Digər tərəfdən, tələbələrin həmin kurslar üzrə müstəqil oxu materialları yoxdur. Əgər metodoloji, elmi əsaslar magistratura pilləsində tələbələrə kifayət qədər sistemli və dərindən öyrədilərsə, onların müstəqil araşdırma işləri elmi-nəzəri əsaslara söykənmiş olar. Tədrisdəki belə bir kəsirli cəhət magistr dissertasiyalarının da elmi-metodoloji əsaslarının düzgün müəyyənləşdirilməməsinə gətirib çıxarır. Dissertasiyalar ümumi təsviri xarakter daşıyır. Müşahidələrimiz göstərir ki, magistrlər vaxt büdcəsindən məqsədyönlü istifadə etmirlər, biri-biriləri ilə

yazdıqları müstəqil işlə əlaqədar müzakirələr keçirmirlər. Ümumiyyətlə, dissertasiya işinə həvəsli və məsuliyyətlə yanaşan magistrlər azlıq təşkil edir.

Tədqiqatdan aldığımız nəticəyə görə, tələbələrlə müstəqil işin daha effektli olması üçün vaxt büdcəsindən düzgün istifadənin, tələbələrdə məsuliyyət hissinin artırılmasının, onların yaxşı nailiyyətə həvəsləndirilməsinin mühüm əhəmiyyəti vardır. Tələbə müstəqil işinin müzakirə olunaraq, diskussiya yaradaraq, dəyərləndirilməsi həm maraq oyadır, həm də məsuliyyəti artırır.

Araşdırmadan və təcrübə-sınaq işlərindən belə qənaətə gəlirik ki, tələbələrin müstəqil işinin mahiyyəti onun məqsəd və vəzifələri ilə vəhdət təşkil edir. Əgər çox yığcam şəkildə ümumiləşdirsək, deyə bilərik ki, tələbələrin müstəqil işi onlarda müstəqil iş fəaliyyət vərdişləri aşılamaq məqsədi daşıyır, tələbələrin kamil, əqli, əxlaqi, psixologi-idraki keyfiyyətli müstəqil düşüncə tərzinə malik insanlar kimi yetişməsi vəzifəsini yerinə yetirir. Lakin bu proses müstəqil tələbə işinə sistem təşkil edən pedaqoji proses kimi yanaşmağı tələb edir və bu prosesin həyata keçirilməsini dəqiq məqsədə xidmətə yönəldir. Bu zaman cəmiyyətin sosial sifarişi, müstəqil işlərin sistemi, tələbələrin psixologiyası, təhsilin pillə və mərhələləri, dekanlıq- kafedra-müəllim-tələbə əməkdaşlığı və d. bu kimi şərtlər nəzərə alınır.

Tələbələrin müstəqil işinin təşkilinin sırf pedaqoji-metodik və psixoloji şərtləri vardır ki, bunlar ayrıca araşdırılmadan işin səmərəli təşkili və səmərəli nəticə alınması mümkün deyildir

## Nəticə və Təkliflər

Tələbə müstəqil işi təhsil alanların bilik, bacarıq və vərdişlərə davamlı yiyələnməsinə, onların intellektual inkişafına, müstəqil fikri fəaliyyətə və əməli işlərə fəal hazırlaşmasına əsaslı şəkildə kömək edən mühüm pedaqoji-didaktik tələb və vasitə kimi, Şərqdə, o cümlədən Azərbaycanda hələ orta əsrlərdən məlum olmuş və təhsildə ondan bütün dövrlərdə istifadə edilmişdir.

Praktik tətbiqinə və mühüm əməli əhəmiyyətinə baxmayaraq, Azərbaycanda ali məktəbdə tələbə müstəqil işinin mahiyyəti, təşkili, imkanları və yolları, formaları, tədqiqi məsələləri və s. bu tədqiqata qədər sistemli olaraq öyrənilməmiş, ciddi araşdırma mövzusu olmamışdır.

TMİ-nə ötən tarixi dövrlərdə tədrisdə didaktik vasitə və tələb kimi baxılmışsa, hazırda, bu, həm də cəmiyyətin sosial-iqtisadi tələbi səviyyəsinə qalxmış, şəxsiyyətin fəaliyyət və ünsiyyət hazırlığının əsas komponentinə çevrilmişdir.

Ali məktəbdə TMİ təhsil alanların ixtisas-peşə hazırlığını, idrak fəaliyyətini, yaradıcılıq qabiliyyətini, tədqiqatçılıq səriştəsini, şəxsiyyət kamilliyini inkişaf etdirən, formalaşdıran, sistemli və fasiləsiz pedaqoji prosesin özəyini təşkil edir.

Ali məktəbdə TMİ-nin sistemi, imkanları və yolları, metodik təminatı I kursdan başlayaraq düzgün müəyyənləşdirildikdə və onun həyata keçirilməsində ardıcıllıq və məqsədyönlülük əsas götürüldükdə istənilən səmərəli nəticəni almaq mümkündür.

Ali məktəbdə TMİ-nin imkanları genişdir. Bu tədris planı üzrə ayrılmış məşğələlərdə və auditoriyadankənar çalışmalarda, tədris planından kənar sərbəst müstəqil işlərdə ehtiva olunur, müəyyən vaxt büdcəsi və əmək sərf edilməklə ondan istifadənin nəticələri meydana çıxır.

Ali məktəbdə TMİ-nin təşkili və tətbiqi yolları müxtəlifdir, lakin bunların hamısı biri-birilə əlaqəlidir, vahid məqsədə xidmət edərək, təhsil alanın müstəqillik hazırlığının formalaşdırılması vəzifəsini yerinə yetirir.

TMİ-nin təşkili və reallaşdırılmasında pedaqoji-psixoloji, didaktik-metodiki şərtlərin (tələblərin) mütləq nəzərə alınması, dekanlıq-kafedra-müəllim-tələbə əlaqə və əks əlaqəsinin mövcudluğu, vaxt büdcəsi və iş qrafikinə dəqiq əməl edilməsi, müəllimlər tərəfindən elmi rəhbərlik, məsləhət, nəzarət və yoxlamanın, dəyərləndirmənin bir qayda olaraq iş üslubuna çevrilməsi və bunların yüksək mənəviyyatlılıq səviyyəsində olması məsuliyyət hissini artırır, müstəqil iş tələbatı və rejiminin formalaşmasını təmin edir.

**Research and Publication Ethics**

In this study, all rules specified in the "Directive on Scientific Research and Publication Ethics of Higher Education Institutions" were followed. None of the actions specified under the second section of the Directive, "Actions Contrary to Scientific Research and Publication Ethics", have been carried out.)

Bu tədqiqatda "Ali Təhsil Müəssisələrinin Elmi Tədqiqat və Nəşr Etikası haqqında Direktiv"də göstərilən bütün qaydalara əməl edilmişdir. Direktivin ikinci bölməsi olan "Elmi Tədqiqat və Nəşr Etikasına Zidd Hərəkətlər"də göstərilən heç bir tədbir görülməmişdir.)

**Disclosure Statements**

1. Contribution rate statement of researchers: First Author 100%.
2. No potential conflict of interest was reported by the author.

1. Tədqiqatçıların töhfə nisbəti haqqında bəyanat: Birinci Müəllif 100%.
2. Müəllif tərəfindən heç bir potensial maraq toqquşması bildirilməyib.

## Ədəbiyyat


Abbasov A., Əlizadə H. (2000) Pedaqogika.Bakı nəşriyyatı.

Əhmədov B. (2000) Düşüncə, düşüncə, yenə də düşüncə. Azərbaycan məktəbi, 5, 32-38.

Əhmədov H.M. və b. (2000)*İdarəetmənin pedaqogika və psixologiyası*. Maarif nəşriyyatı

Ağayev Ə. (2000) *Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz*.- Bakı nəşriyyatı

Архангельский С.И.(1980*) Учебный процесс в высшей школе, его закономерное основы и методы*.- М.: Высшая школа.

İsmixanov M. (1978), *İbtidai təlimdə şagirdlərin müstəqil işi*, Bakı nəşriyyatı

Иоганзен Б.Г.,(1970) *Научная организация самостоятельной работы студентов*.Томск

Kazımov N.M. (1999), *Ali məktəb pedaqogikası*. Nicat nəşriyyatı.

Şəfiyev S.( 1997), *Tələbələrin müstəqil işlərinə dair*. Azərbaycan məktəbi,2, 3-6

Talıbov Y.R. (1990)*Tələbələrlə müstəqil işin təşkili (tövsiyələr)*, Adiloğlu nəşriyyatı

## Extended Abstract

### Introduction

One of the pedagogical problems that is considered very relevant in the education system today is the effective organization and implementation of independent work of learners. In the words of the pedagogue scientist Y. Talibov, openness, democracy, and increasing the role of the human factor encourage young students to make independent judgments and conduct dialogue. In the general aspect of this issue, there is also a special aspect related to education, which is related to the ability to acquire scientific knowledge and use it. It is known that education should not be limited to providing ready-made knowledge, but should also take care of the independent acquisition of knowledge by learners. According to the Polish scientist V. Oko, there has always been and still is an important connection between the development of science and education. Therefore, in accordance with the modern interpretation of the concept of "science", in education we must both give knowledge to pupils and students and accustom them to the appropriate types of activities for independent acquisition of knowledge. This view is confirmed by our observations. Indeed, theoretical and practical science is developing very rapidly, and even the principle of stability that was once given to textbooks no longer justifies itself. Because some scientific results that have entered the textbook are quickly replaced by new ones, the textbook needs to be changed, or many of the newly discovered things become obsolete before they enter textbooks or lecture courses. Research scientist B. Ahmadov rightly notes that the task of teachers and educators, both in general education schools and higher education institutions, is not only to provide ready-made knowledge, but also to teach ways to acquire knowledge independently. The scientist regrets that the issue of organizing the activities of pupils and students for the independent acquisition of knowledge still remains one of the unregulated problems. "Therefore, one of the important issues facing scientists conducting research in the field of pedagogy should be related to the problem of proper organization of independent work of pupils and students, and the development of their thinking." (Ahmadov H.M., 2000). Although more than twenty-five years have passed, the scientist's idea still retains its relevance. There has not yet been any research of practical significance or impetus for practical work related to students' independent work.

The organization of independent work of students has purely pedagogical-methodological and psychological conditions, without which it is impossible to organize work effectively and obtain effective results. Student independent work, as an important pedagogical-didactic requirement and tool that fundamentally contributes to the continuous acquisition of knowledge, skills and habits of students, their intellectual development, independent intellectual activity and active preparation for practical work, has been known in the East, including Azerbaijan, since the Middle Ages, and has been used in education at all times. Despite its practical application and important practical importance, the

essence, organization, possibilities and ways, forms, research issues of student independent work in higher education in Azerbaijan have not been systematically studied until this study and have not been the subject of serious research.  If TMI was considered as a didactic tool and requirement in teaching in past historical periods, now it has also risen to the level of a socio-economic requirement of society and has become the main component of a person's preparation for activity and communication. In higher education, TMI constitutes the core of a systematic and continuous pedagogical process that develops and shapes the professional and vocational training, cognitive activity, creative ability, research competence, and personal perfection of students. When the system, capabilities and methods, methodological support of TMI in higher education are correctly determined starting from the first year and consistency and purposefulness are taken as the basis for its implementation, it is possible to obtain any effective result. The possibilities of TMI in higher education are wide. It is included in the lessons allocated according to the curriculum and extracurricular activities, in independent work outside the curriculum, and the results of its use appear with a certain budget of time and effort. The ways of organizing and implementing TMI in higher education are different, but all of them are interconnected, serving a single goal and fulfilling the task of forming the student's independence preparation. In the organization and implementation of TMI, the absolute consideration of pedagogical-psychological, didactic-methodical conditions (requirements), the existence of dean's office-department-teacher-student communication and feedback, strict adherence to the time budget and work schedule, the transformation of scientific guidance, advice, control and inspection, and evaluation by teachers into a work style as a rule, and their high level of morality increase the sense of responsibility and ensure the formation of independent work requirements and regime.

**Copyrights**

Copyright for this article is retained by the author(s), with first publication rights granted to the Journal. This is an open-access article distributed under the terms and conditions of the Creative Commons Attribution license ( CC BY NC SA) (http://creativecommons.org/licenses/by-nc-sa/4.0/)